**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№346/7** **28 iyul 2022-ci il**

# “Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq” mövzusunda 2022-ci il 16 sentyabr tarixində keçirilməsi nəzərdə tutulmuş beynəlxalq elmi-praktik konfrans barədə

“Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasında (2021-2030-cu illər)” nəzərdə tutulan tədbirlərin, Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 8.3-cü “Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, “dəyirmi masa”ların və seminarların təşkilinin müvafiq struktur bölmələr ilə birgə həyata keçirilməsi” bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Auditorlar Palatasının birgə təşkilatçılığı ilə 2022-ci ilin 16 sentyabr tarixində “Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktik konfransın keçirilməsinə dair görüləcək işlərin təmin edilməsi məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2022-ci il 16 sentyabr tarixində “Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktik konfransın keçirilməsi məqsədəmüvafiq hesab edilsin.

2. Auditorlar Palatası sədrinin 2022-ci il 15 iyul tarixli 1/23 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Rəqəmsal iqtisadiyyatda hesabatlılıq və şəffaflıq” mövzusunda 2022-ci il 16 sentyabr tarixində keçiriləcək beynəlxalq elmi-praktik konfransla bağlı Tədbirlər Planı”nda nəzərdə tutulmuş məsul şəxslərə tapşırılsın ki, konfransın keçirilməsinə dair tədbirlərin vaxtında və yüksək keyfiyyətlə həyata keçirilməsini təmin etsinlər.

3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bir həftə müddətində bu qərarın mətni azərbaycan, ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**